# Daha 5 güləşçimiz medal daxılımızı zənginləşdirib

## Eldəniz Əzizli və Rafiq Hüseynov İslamiadanın qalibləridir



Dünən günün birinci yarısında V İslam Həmrəyliyi Oyunlarında Azərbaycanın daha üç güləşçisi bütün görüşlərini qələbə ilə başa vuraraq finala yüksəliblər. Belə ki, Eldəniz Əzizli (55 kq) yarımfinalda qazaxıstanlı Amangali Bekbolatova 3:1, Rafiq Hüseynov (82 kq) türkiyəli Emrah Kuşa 2:1, Elis Manolova (65 kq) isə kamerunlu Berte Emilyeyə 2:1 hesabı ilə qalib gələrək həlledici mərhələyə adlayıblar.

Bundan əvvəl isə yunan-Roma güləşçimiz Ülvi Qənizadə (72 kq) uğurla çıxış edərək finala çıxıb. İdmançımız final uğrunda mübarizədə qırğızıstanlı Bek Konurbayevə 9:0 hesabı ilə qalib gələrək həlledici mərhələyə vəsiqə qazanıb.

Elis Manolova həlledici görüşdə qazaxıstanlı Yelena Şalıqinaya məğlub olaraq İslamiadanı gümüş medalla başa vurub.

Eldəniz Əzizli final görüşündə özbəkistanlı Jasurbek Ortikboyevlə üz-üzə gəlib. Rəqibini 10:1 hesabı ilə məğlub edən güləşçimiz İslamiadanın qalibi olub.

"Əsas gücümü ikinci hissəyə saxlamışdım. Rəqibin parterdə mən heç nə edə bilməyəcəyini bilirdim. Şükürlər olsun ki, arzuma çatdım". Bunu Eldəniz Əzizli jurnalistlərə açıqlamasında deyib. O, gələn ay Serbiyanın paytaxtı Belqradda keçiriləcək dünya çempionatındakı hədəfini də açıqlayıb: "Azərbaycanın yunan-Roma güləşi tarixində 2 qat dünya çempionu yalnız Fərid Mansurovdur. Mən bu sevinci bir dəfə yaşamışam. Məqsədim ikinci dəfə dünya çempionu olmaqdır".

Bu arada Azərbaycanın qadın güləşçisi Elnurə Məmmədova bürünc medal qazanıb. 55 kq çəki dərəcəsində çıxış edən idmançı tunisli Faten Hammamiyə qalib gəlib.

Ülvi Qənizadə isə gümüş medalla kifayətlənib. İdmançımız finalda iranlı Mahmud Rüstəmiyə 8:9 hesabı ilə uduzub və 2-ci yeri tutub.

Azərbaycanın daha bir güləşçisi Rafiq Hüseynov qızıl medal uğrunda qarşılaşmada qırğızıstanlı Kalidin Asikeyevlə görüşüb. Rəqibinə 6:3 hesabı ilə qalib gələn idmançımız fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Beləliklə, Azərbaycan güləşçiləri günü 5 medalla başa vurublar.

Güləşçilərimizin medallar uğrunda çıxışlarını gənclər və idman naziri Fərid Qayıbov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibi Azər Əliyev və gənclər və idman nazirinin müavini Mariana Vasileva da izləyiblər.

Azərbaycan.- 2022.-13 avqust.- S.11.